# Universitetin üç missiyası

Oruc MUSTAFAYEV

## Rusiya dünyanın nüfuzlu ali məktəblərinin yeni reytinqini təqdim etdi

Dekabrın 11-də Moskvada dünya universitetlərinin birinci Rusiya qlobal reytinqi təqdim edilib. "Universitetin üç missiyası" adlı yeni reytinqin M.V.Lomonosov adına Moskva Dövlət Universitetində keçirilən təqdimatında bu ali məktəbin rektoru, akademik V.Sadovniçi reytinqin ərsəyə gəlməsi, hədəfləri, əsaslandığı metodologiyalar barədə danışıb. Onun sözlərinə görə, ali məktəblərin Moskva beynəlxalq reytinqi – prinsipial olaraq yeni akademik reytinqdir. Bu reytinq universitetin üç əsas missiyasını – *təhsil* (45%), *elmi* (25%) və ilk dəfə reytinq tədqiqatlarında rast gəlinən *cəmiyyət və ali məktəbin qarşılıqlı əlaqəsini* (30%) qiymətləndirir. Reytinq bir sıra yeni obyektiv meyarlara əsaslanır və subyektiv nüfuz sorğularını istisna edir. V.Sadovniçi qeyd edib ki, ekspertlər lisenziyalı jurnallarda dərc olunmuş elmi məqalələrin sayını, abituriyent hazırlığını, əmək bazarı ilə əlaqə, kampusun keyfiyyəti kimi faktorları nəzərə alıblar. Reytinqin hazırlanması təşəbbüsü Rusiya, Çin, Hindistan, İran, Türkiyə, Yaponiyanın aparıcı universitetləri tərəfindən dəstəklənib. Reytinqin metodologiyasının Rusiyada və xaricdə genişmiqyaslı ictimai müzakirəsi keçirilib, bu müzakirələrdə 100-dən çox universitet, rektorlar şuraları, ekspert assosiasiyaları və reytinq agentlikləri iştirak edib. Reytinqin ekspert şurasına 12 ölkədən 25 ekspert daxildir. Növbəti mərhələdə təklif olunan yanaşmalar və meyarların sınaqdan keçirilməsi gedişində reytinq modelinin aprobasiyası aparılıb. Bundan sonra reytinqin meyarlarının siyahısı Beynəlxalq ekspert şurasının müzakirəsinə təqdim edilib. Bu şuraya ABŞ, Böyük Britaniya, Braziliya, Çin, Hindistan, CAR, İran, İtaliya, Belçika, Türkiyə, Polşa və Rusiyanın ali məktəb təhsili sahəsində 25 nüfuzlu mütəxəssis daxildir. Şuranın ilk əyani müzakirəsi 2017-ci il 8-9 iyun tarixlərində M.V.Lomonosov adına Moskva Dövlət Universitetində baş tutub. Daha sonra ekspertlərlə məsləhətləşmələr fərdi qaydada davam etdirilib. Modelin aprobasiyası və əcnəbi ekspertlərlə birgə işin nəticələrinə əsasən qiymətləndirmə meyarlarının ilkin siyahısı korrektə olunub.

Yeni pilot reytinqin 200 ən yaxşı ali məktəb siyahısına 39 ölkədən universitetlər daxil olub. Rusiya siyahıda 13 ali məktəblə, MDU isə ilk 100-lükdə 25-ci yerdə qərarlaşıb. Reytinqdə daha çox Avropa universitetləri (48), ABŞ ali məktəbləri (41) təmsil olunublar. Böyük Britaniya və Çin də kifayət qədər üstünlük nümayiş etdiriblər (müvafiq olaraq 18 və 14 ali məktəblə).

Qeyd edək ki, layihəyə dünyada elmin ən böyük istinad mənbəyi hesab olunan Clarivate Analytics kompaniyası tərəfindən dəstək göstərilib. Reytinqin hazırlanmasında bu sahədə dünyada nüfuzlu olan Böyük Britaniyanın "QS" və "Times Higher Education" World University Rankings şirkətlərinin ekspertləri də iştirak edib.

| Tutduğu yer | Ali məktəbin adı | Ölkə | Topladığı bal |
|---|---|---|---|
| 1. | Harvard University | ABŞ | 89,499 |
| 2. | Massachusetts Institute of Technology (MIT) | ABŞ | 69,646 |
| 3. | Stanford University | ABŞ | 66,599 |
| 4. | Yale University | ABŞ | 65,498 |
| 5. | University of Cambridge | Böyük Britaniya | 63,966 |
| 6. | University of Oxford | Böyük Britaniya | 62,417 |
| 7. | University of Michigan | ABŞ | 59,398 |
| 8. | Johns Hopkins University | ABŞ | 57,864 |
| 9. | École polytechnique fédérale de Lausanne (EPFL) | İsveçrə | 57,121 |
| 10. | Princeton University | ABŞ | 56,866 |
| 11. | University of Tokyo | Yaponiya | 56,113 |
| 12. | Columbia University | ABŞ | 55,794 |
| 13. | Imperial College London | Böyük Britaniya | 55,727 |
| 14. | University of Chicago | ABŞ | 55,613 |
| 15. | California Institute of Technology (Caltech) | ABŞ | 55,461 |
| 16. | University of Pennsylvania | ABŞ | 55,246 |
| 17. | ETH Zurich | İsveçrə | 54,367 |
| 18. | Cornell University | ABŞ | 53,486 |
| 19. | Duke University | ABŞ | 53,385 |
| 20. | University of California, Berkeley | ABŞ | 53,209 |
| 21. | University of California, San Diego (UCSD) | ABŞ | 52,835 |
| 22. | University College London | Böyük Britaniya | 52,010 |
| 23. | King's College London | Böyük Britaniya | 51,108 |
| 24. | University of California, Los Angeles (UCLA) | ABŞ | 51,012 |
| 25. | Lomonosov Moscow State University | Rusiya | 49,695 |
| 26. | Washington University in St. Louis | ABŞ | 49,505 |
| 27. | The University of Manchester | Böyük Britaniya | 49,192 |
| 28. | National University of Singapore (NUS) | Sinqapur | 49,073 |
| 29. | Kyoto University | Yaponiya | 48,772 |
| 30. | Northwestern University | ABŞ | 48,713 |
| 31. | Georgia Institute of Technology | ABŞ | 48,691 |
| 32. | Nanyang Technological University, Singapore (NTU) | Sinqapur | 48,512 |
| 33. | Peking University | Çin | 48,322 |
| 34. | Karolinska Institute | İsveç | 48,206 |
| 35. | Boston University | ABŞ | 47,408 |
| 36. | London School of Economics and Political Science (LSE) | Böyük Britaniya | 47,195 |
| 37. | University of Illinois at Urbana-Champaign | ABŞ | 47,173 |
| 38. | University of Geneva | İsveçrə | 46,773 |
| 39. | Emory University | ABŞ | 46,277 |
| 40. | Rice University | ABŞ | 46,076 |
| 41. | University of Washington | ABŞ | 45,835 |
| 42. | Heidelberg University | Almaniya | 45,600 |
| 43. | École normale supérieure, Paris | Fransa | 45,261 |
| 44. | École Polytechnique | Fransa | 45,216 |
| 45. | New York University | ABŞ | 45,068 |
| 46. | University of Wisconsin-Madison | ABŞ | 45,039 |
| 47. | Dartmouth College | ABŞ | 44,625 |
| 48. | The University of Edinburgh | Böyük Britaniya | 44,486 |
| 49. | The Australian National University | Avstraliya | 43,844 |
| 50. | The Chinese University of Hong Kong | Çin/Honkonq | 43,769 |
| 51. | University of Sydney | Avstraliya | 43,618 |
| 52. | University of Toronto | Kanada | 43,513 |
| 53. | University of Pittsburgh | ABŞ | 43,439 |
| 54. | University of Copenhagen | Danimarka | 43,302 |
| 55. | University of Zurich | İsveçrə | 43,168 |
| 56. | University of Bristol | Böyük Britaniya | 43,144 |
| 57. | The University of Warwick | Böyük Britaniya | 43,058 |
| 58. | Wageningen University & Research | Niderland | 42,954 |
| 59. | Carnegie Mellon University | ABŞ | 42,794 |
| 60. | Delft University of Technology | Niderland | 42,744 |
| 61. | University of Southern California | ABŞ | 42,589 |
| 62. | University of Minnesota, Twin Cities | ABŞ | 42,378 |
| 63. | University of Basel | İsveçrə | 42,114 |
| 64. | University of Maryland, College Park | ABŞ | 42,031 |
| 65. | University of Tübingen | Almaniya | 41,701 |
| 66. | Radboud University Nijmegen | Niderland | 41,612 |
| 67. | University of Amsterdam | Niderland | 41,556 |
| 68. | Tohoku University | Yaponiya | 41,242 |
| 69. | Karlsruhe Institute of Technology (KIT) | Almaniya | 41,056 |
| 70. | University of North Carolina, Chapel Hill | ABŞ | 41,046 |
| 71. | Uppsala University | İsveç | 41,023 |
| 72. | Saint Petersburg State University | Rusiya | 40,914 |
| 73. | Moscow Institute of Physics and Technology | Rusiya | 40,891 |
| 74. | Maastricht University | Niderland | 40,520 |
| 75. | The University of Melbourne | Avstraliya | 40,457 |
| 76. | The University of Sheffield | Böyük Britaniya | 40,225 |
| 77. | University of California, Irvine | ABŞ | 39,969 |
| 78. | Nagoya University | Yaponiya | 39,967 |
| 79. | Fudan University | Çin | 39,929 |
| 80. | The University of Hong Kong | Honkonq | 39,788 |
| 81. | University of St Andrews | Böyük Britaniya | 39,665 |
| 82. | Charles University | Çexiya | 39,464 |
| 83. | Ludwig-Maximilian University of Munich | Almaniya | 39,397 |
| 84. | Trinity College Dublin | İrlandiya | 39,145 |
| 85. | Shanghai Jiao Tong University | Çin | 38,933 |
| 86. | University of Oslo | Norveç | 38,876 |
| 87. | University of Alberta | Kanada | 38,755 |
| 88. | University of California, Davis | ABŞ | 38,736 |
| 89. | Aarhus University | Danimarka | 38,561 |
| 90. | University of British Columbia | Kanada | 38,393 |
| 91. | Brown University | ABŞ | 38,286 |
| 92. | RWTH Aachen University | Almaniya | 38,254 |
| 93. | Pennsylvania State University | ABŞ | 38,152 |
| 94. | University of Freiburg | Almaniya | 38,107 |
| 95. | Erasmus University Rotterdam | Niderland | 37,867 |
| 96. | The Ohio State University | ABŞ | 37,809 |
| 97. | Pohang University of Science and Technology (POSTECH) | Cənubi Koreya | 37,533 |
| 98. | University of Glasgow | ABŞ | 37,524 |
| 99. | University of Southhampton | ABŞ | 37,376 |
| 100. | KU Leuven | Belçika | 37,262 |



*Harvard Universiteti*



*Massaçusets Texnologiya İnstitutu*



*Stenford Universiteti*



*Yel Universiteti*



*Kembric Universiteti*